*Əsrarəngiz təbiətə malik olan Laçın rayonu ölkəmizin cənub-qərbində, Kiçik Qafqazda yerləşir. Rayonun ərazisi şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayonda 1 şəhər, 1 qəsəbə, 125 kənd olub. Birinci Qarabağ müharibəsinin gedişində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan rayonlardan biri də Laçındır. Rayon 1992-ci il mayın 18-də Şuşa şəhərinin Turşsu ərazisindən və Ermənistan istiqamətindən təşkil edilən hücum nəticəsində zəbt edilib. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qalıb. Nəticədə 77 mindən artıq əhali respublikanın müxtəlif bölgələrində məskunlaşıb. 28 illik işğal dövründə Ermənistan silahlı qüvvələri tərəfindən rayonda dövlət və özəl mülkiyyətə ciddi zərər yetirilib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib. Erməni vəhşiliyi nəticəsində rayona 7.1 milyard dollar həcmində ziyan vurulub. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb. Laçının işğalı zamanı 264 nəfər şəhid olub, 65 nəfər girov götürülüb, 103 nəfər əlil olub.*

# "...Biz hamımız qayıdacağıq və o gün də gəldi"



İşğal dövründə Ermənistan Laçın rayonunda qanunsuz məskunlaşma siyasəti həyata keçirib. Xaricdə yaşayan ermənilər məqsədyönlü şəkildə Laçın şəhərinə və ətraf kəndlərə köçürülərək orada yerləşdirilib. Bu addım beynəlxalq hüquq normalarına, xüsusilə də Cenevrə Konvensiyalarına zidd olmaqla hərbi cinayət kimi qiymətləndirilir. Təəssüf ki, Ermənistan dövləti bu ağır beynəlxalq cinayətə görə indiyədək heç bir məsuliyyətə cəlb olunmayıb.

Bütün bu ağrı-acılara baxmayaraq, Azərbaycan işğal illərində özündə kifayət qədər güc topladı və nəhayət, müharibə yolu ilə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Məsələnin hərbi yolla həll olunmasının əsas səbəbi isə Ermənistanın yarıtmaz və məsuliyyətsiz siyasəti oldu. Belə ki, İkinci Qarabağ müharibəsi ərəfəsində aparılan danışıqlar prosesi dalana dirənmişdi. "Narıncı inqilab" ilə Ermənistanda hakimiyyətə gələn yeni qüvvələrin Azərbaycana qarşı təxribatları isə vəziyyəti daha da gərginləşdirdi. Ölkənin baş naziri Nikol Paşinyanın işğal altındakı Şuşaya səfərləri, Azərbaycanın qədim şəhərində yallı getməsi, "Qarabağ Ermənistandır və nöqtə" deməsi, qondarma Dağlıq Qarabağ Respublikasının prezidentinin andiçmə mərasiminin məhz Şuşada keçirilməsi və separatçı "parlamentin" də bu şəhərə köçürüləcəyini bəyan etməsi müharibənin qaçılmazlığını göstərdi. Nəhayət Ermənistan silahlı qüvvələrinin 2020-ci ilin iyul ayında törətdiyi təxribatlar nəticəsində general-mayor Polad Həşimovun, eləcə də qəhrəman 11 əsgər və zabitimizin şəhid olması Azərbaycan xalqının səbrini tükəndirdi. Prezident İlham Əliyev Paşinyanın təxribatçı çıxışına həm "Qarabağ Azərbaycandır və nida" dedi, həm də bunun həqiqət olduğunu sübuta yetirdi.

Əslində, buna qədər baş verən bir sıra hadisələr də onu göstərirdi ki, ölkəmizdə nəyin bahasına olursa-olsun torpaqları işğaldan azad etməyə cəsarəti çatan gənc nəsil yetişir. 2004-cü ildə Ramil Səfərovun, 2010-cu ildə Mübariz İbrahimovun göstərdiyi igidlik buna nümunədir. 2016 və 2018-ci ildə Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları isə düşmən üçün bir həyəcan siqnalı və dünyaya bir mesaj idi. Ramil, Mübariz və Polad kimi qəhrəmanlardan ilham alan Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də düşmənin hərbi təxribatlarına cavab olaraq əks-hücum əməliyyatına başladı. Müharibənin elə ilk günündə düşmənin onilliklər ərzində qurub möhkəmləndirdiyi və "qürurla" bəhs etdiyi müdafiə xətti darmadağın edildi. Həmin gün Füzuli və Cəbrayıl rayonlarının altı kəndi, eləcə də Ağdərə və Murovdağ istiqamətlərində strateji yüksəkliklər işğaldan azad olundu. Düşmənə sarsıdıcı zərbələr vuran Silahlı Qüvvələrimiz oktyabrın 3-də böyük strateji əhəmiyyət daşıyan Suqovuşan və Talış kəndlərini, bir gün sonra isə Cəbrayıl şəhərini və rayonun 9 kəndini azad etdilər. Ardınca oktyabrın 9-dan 26-dək davam edən əməliyyatlar nəticəsində Xocavənd rayonunun Hadrut qəsəbəsi, Füzuli şəhəri, tarixi Xudafərin körpüsü, Zəngilan və Qubadlı şəhərləri də Azərbaycanın nəzarəti altına keçdi. Qarabağ Zəfərinin pik nöqtəsi isə noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi oldu. Bu hadisə müharibənin taleyində önəmli rol oynadı və düşmən noyabrın 10-da rəsmi olaraq təslim oldu. 44 günlük Vətən müharibəsində 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanında əldə edilən mütləq Zəfər siyasi müstəvidə də uğurla davam etdi. Azərbaycan Rusiya dövlət başçılarının və Ermənistan baş nazirinin 10 noyabr tarixində imzaladığı Birgə Bəyanata Ağdam, Kəlbəcər və Laçın rayonları geri qaytarıldı. Laçın rayonu həm döyüş meydanında, həm də siyasi yolla azad edilib. 44 günlük Vətən müharibəsində Laçının işğaldan azad edilməsi Azərbaycan Ordusunun əsas vəzifələrindən biri olub. Rayonun cənub hissəsi - Güləbird kəndi və bir neçə digər yaşayış məntəqəsi məhz döyüş meydanındakı qələbə ilə işğaldan azad edilib. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Laçın rayonu Azərbaycanın nəzarətinə keçsə də Laçın şəhəri hələlik nəzarətdən kənarda qalırdı. Bunun səbəbi Laçın dəhlizinin məhz şəhərin içərisindən keçməsi idi. Bu səbəbdən Laçın şəhəri müvəqqəti olaraq Rusiya sülhməramlı kontingentinin nəzarəti altında saxlanılırdı. Lakin alternativ yolun istifadəyə verilməsindən sonra Azərbaycan Ordusu 2022-ci il avqustun 26-da Laçın şəhərinə daxil olub, eyni zamanda Zabux və Sus kəndlərini də nəzarətə götürüb. Həmin gün Laçın şəhərində Azərbaycan bayrağı ucaldılıb. Bundan əvvəl Prezident İlham Əliyev 31 iyul 2022-ci il tarixində işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi ilə bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən 26 avqust tarixi Laçın Şəhəri Günü kimi qeyd olunur.

İkinci Qarabağ müharibəsində qazanılan tarixi qələbədən sonra Laçın rayonunda da genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. Laçın şəhəri və rayonun digər kəndlərində həyata keçirilən layihələr Prezident İlham Əliyevin şəxsi nəzarəti altında aparılır. Laçın şəhərinə və kəndlərə gedən avtomobil yolları yenidən qurulur. Şəhər və kəndlərdə su, qaz və elektrik təchizatı tamamilə yenilənir. "Ağıllı kənd" konsepsiyasına uyğun müasir infrastruktur yaradılır. Laçın şəhərində və kəndlərdə yeni yaşayış massivləri salınır. Köçkün ailələrinin qayıdışı üçün fərdi evlər, çoxmənzilli binalar inşa olunur. Yeni məktəblər, uşaq bağçaları və səhiyyə ocaqları tikilir. Laçının zəngin təbiəti qorunaraq ekoturizm inkişaf etdirilir. Torpaqların minalardan təmizlənməsi ilə paralel olaraq əkinçilik və heyvandarlıq üçün şərait yaradılır. İşğal zamanı dağıdılmış tarixi abidələr, məscidlər, qəbiristanlıqlar və digər mədəni irs nümunələri bərpa olunur. Artıq Laçın şəhərində bütün yeraltı infrastruktur xətləri çəkilib. Elektrik enerjisi, təbii qaz və su təchizatı ilə bağlı heç bir çətinlik mövcud deyil. Şəhər tamamilə içməli su ilə təmin olunub. Xırmanlar bölgəsindən, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən ərazidən Laçına alternativ su xətti çəkilib. Bu xətt vasitəsilə şəhərə təbii bulaq suyu verilir. Laçının sərt və soyuq iqlim şəraiti nəzərə alınaraq bütün fərdi yaşayış evlərində kombi istilik sistemləri qurulub. Günəş radiasiyasının yüksək olduğu ərazilərdə dam örtüklərinə günəş panelləri quraşdırılıb və bu alternativ enerji mənbəyi kimi istifadə olunur.

Laçın şəhərinin özünəməxsus xalq memarlıq ənənələri qorunur. Tikinti işləri əsasən təbii qaya daşlarından aparılıb. Şəhərin relyefinin amfiteatr formasında olması səbəbilə burada həm klassik xalq memarlığına, həm də Şərq və Qərb memarlıq üslublarının harmoniyasına üstünlük verilib. Əhalinin sosial rifah səviyyəsinin yüksəldilməsi məqsədilə Dövlət Proqramı çərçivəsində infrastrukturun yenidən qurulması zamanı bu məsələyə xüsusi diqqət yetirilib. Laçın şəhərindən cəmi 8 kilometr aralıda, Zerti kəndi ərazisində 52 hektarlıq sahədə Aqrosənaye Parkı salınıb. Parkda onarla müəssisə fəaliyyət göstərir. Bu müəssisələr arasında ümumi istehsal sahəsi 4800 kvadratmetr olan "Aydınoğlu" mebel fabriki artıq fəaliyyətə başlayıb. Fabrikdə istifadə olunan bütün avadanlıqlar Türkiyə istehsalıdır və müasir standartlara cavab verir. Bundan əlavə, parkda ayaqqabı, tekstil və efir yağlarının istehsalı üzrə müəssisələr, seleksiya laboratoriyaları və istixanalar fəaliyyət göstərir. İstixanalarda nadir və qiymətli bitki növləri yetişdirilir. Şəhərə köçən sakinlər məşğulluqla təmin olunur, onlar müxtəlif sahələrdə işlə təmin olunmaq üçün xüsusi peşə hazırlığına cəlb edilirlər. Vakansiyalar müəyyən edildikdən sonra vətəndaşlarla fərdi görüşlər keçirilir, onların maraq dairəsinə uyğun olaraq təlim kursları təşkil olunur. Laçın rayonunda sərmayə qoyuluşu üçün də geniş imkanlar yaradılıb.

"Böyük Qayıdış" çərçivəsində Laçında 1000-dən çox yaşayış evi tikilib və bərpa edilib, ümumilikdə 847 ailə doğma yurdlarına köçürülüb. Laçın şəhərində 626 fərdi ev, çoxmənzilli binalarda isə 138 mənzil və 87 qeyri-yaşayış sahəsi istifadəyə verilib. Hazırda şəhərdə 89 fərdi evin, 28 çoxmənzilli binanın və 26 qeyri-yaşayış obyektinin tikinti və bərpa işləri davam etdirilir. Eyni zamanda 237 fərdi evin və 29 çoxmənzilli binanın (436 mənzil) inşası nəzərdə tutulub. Sus kəndində 59 fərdi ev və 4 qeyri-yaşayış binası, Zabux kəndində isə 223 fərdi ev və 4 qeyri-yaşayış binası mövcuddur.

Ötən il 10 may tarixində Laçın rayonuna səfər edən Prezident İlham Əliyev Sus kəndində görülmüş işlərlə tanış olub, kəndə köçmüş sakinlərlə görüşüb. Dövlət başçısı həmin vaxt illər öncə dediyi sözləri xatırladıb: "13 il əvvəl Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində laçınlılarla öz doğum günümdə görüşmüşəm. Onlara söz vermişdim ki, biz hamımız qayıdacağıq və o gün də gəldi... İndi Laçın şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. İndi Zabuxda, Susda, Güləbirddə iş gedir. O biri kəndlərdə də iş gedir. Hava limanı inşa edilir, gələn il hazır olacaq".

Laçında tikintisi yekunlaşmaq üzrə olan Beynəlxalq Hava Limanı rayonunda icra edilən meqalayihələrdən biridir. Qorçu kəndinin ərazisində inşa edilən hava limanında saatda 200 sərnişinə beynəlxalq standartlara uyğun xidmət göstərmək mümkün olacaq. Hava limanının uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni 60 metr, perron sahəsi 50 min kvadratmetr olacaq. Terminalın sahəsi isə 5 min kvadratmetrdir. Laçın həm də bu il əlamətdar hadisə ilə yadda qalacaq. TDT-nin dövlət başçılarının 12-ci sammiti bu il Azərbaycanın Laçın şəhərində keçiriləcək.

**Musa BAĞIRLI,**
**"Respublika".**